**Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığı arasında qida təhlükəsizliyi üzrə əməkdaşlıq**

- AQTA ilə Səudiyyə Ərəbistanı Krallığının səlahiyyətli qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində birbaşa əlaqələr qurulmuş, əməkdaşlığın dərinləşdirilməsi üzrə mütəmadi görüşlər və texniki mübadilələr həyata keçirilir.
- 2023-cü il 30 oktyabr tarixində Səudiyyə Ərəbistanı Krallığının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüş zamanı Anlaşma Memorandumunun imzalanması imkanları nəzərdən keçirilmiş, fitosanitar və baytarlıq nəzarətinə aid qida məhsullarının idxal-ixracı ilə bağlı məsələlər müzakirə olunmuşdur.
- 2023-cü il 31 may tarixində Agentlik və Səudiyyə Ərəbistanı Krallığının Ətraf Mühit, Su və Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri arasında “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Ətraf Mühit, Su və Kənd Təsərrüfatı Nazirliyi arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” layihəsinə dair müqabil tərəfin təkliflərinin müzakirəsi məqsədilə onlayn görüş keçirilmişdir.
- 2023-cü il 12 aprel tarixində Agentliyin nümayəndələri ilə Səudiyyə Ərəbistanı Krallığının Baş Ərzaq və Dərman Komitəsi qurumunun nümayəndələri arasında görüş baş tutmuşdur.
- 2023-cü il 6-10 mart tarixlərində Səudiyyə Ərəbistanı Ətraf Mühit, Su və Kənd Təsərrüfatı Nazirliyinin texniki qrupdan ibarət heyətinin ölkəmizə səfəri çərçivəsində baytarlıq nəzarətində olan məhsulların Səudiyyə Ərəbistanı Krallığına idxalı imkanlarının müzakirəsi məqsədilə görüşlər keçirilmiş, epizootoloji vəziyyət, heyvan xəstəlikləri ilə mübarizə prosedurları və s. barədə təqdimatlar edilmiş, AQTİ-nin Mərkəzləşmiş nümunə qəbulu məntəqəsinə, Kompleks Tədqiqatlar Laboratoriyasına, Mərkəzi Baytarlıq Laboratoriyasına və Milli Referens Laboratoriyasına, eləcə də Bakıda heyvan-kəsim məntəqəsinə, heyvandarlıq təsərrüfatlarına baxış keçirilmişdir.
- Müvafiq sahələrdə əməkdaşlığın təşviqi, normativ bazanın təkmilləşdirilməsi məqsədilə 2025-ci ilin 29 aprel tarixində "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Ətraf Mühit, Su və Kənd Təsərrüfatı Nazirliyi  arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanmışdır.